

# Professor İlham Musayev ADA Universitetində keçirilən Beynəlxalq tədbirdə iştirak etmişdir.

İyunun 7-də ADA Universitetində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə **“Təhsilin strateji planlaşdırılması: düşüncələr və perspektivlər”** adlı III beynəlxalq elm və təhsil konfransı öz işinə başlamışdır. Tədbirdə təhsil naziri Ceyhun Bayramov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, ali məktəblərin rektorları, prorektorları, beynəlxalq ekspertlər iştirak etmişlər.

Konfransda Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin prorektoru, professor İlham Musayev iştirak etmişdir. Dünən professor İlham Musayev Universitetin professor-müəllim heyəti ilə söhbətində konfransın Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət strategiyasına həsr olunduğundan, bu tədbirə 50-dən çox tədqiqat işinin təqdim olunduğundan danışdı. Konfransda müzakirə olunan digər məsələlər barədə universitet əməkdaşlarına məlumat verdi.